**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## Azərbaycan Türkiyə Iş Adamları Birliyi (ATİB) və Asiya və Sakit Okean zonası üzrə Maliyyə İnstitutlarının İnkişafı Assosiasiyası (ADFIAP) arasında əməkdaşlıq protokolu imzalandı

**No: 09/34/113**
**09.10.2009**

09 oktyabr 2009-cu ildə Bakıda Azərbaycan Türkiyə İş Adamları Birliyi və Asiya və Sakit Okean zonası üzrə Maliyyə İnstitutlarının İnkişafı Assosiasiyası (ADFIAP – www.adfiap.org) arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Qeyd edək ki, tərəflər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin gücləndirilməsini millətlərin, təşkilatların və xalqların inkişafı üçün önəmli hesab edirlər. Hər iki təşkilatın məqsədi üzvlərinin inkişafı və hədəflərinə çatmaları üçün dəstək verməkdir.

Əməkdaşlıq protokoluna görə, tərəflər kiçik, orta və böyük sahibkarlığın inkişafına kömək edəcək konfrans və simpoziumlar təşkil edəcəklər.

Tərəflər təmsil etdikləri qurumlara üzv təşkilatların və eyni məqsədə malik institutların peşəkar qabiliyyətlərinin artırılması üçün təlimlər keçirilməsini təmin edəcəklər.

Eyni zamanda, tərəflər təşkilatlarında birləşmiş qurumlar və onların müştəriləri arasında biznes şəbəkəsi və strateji ittifaqlar yaradılmasına dəstək verəcək təcrübə mübadiləsi həyata keçirəcəklər.

Bundan başqa, ADFIAP və ATİB informasiya mübadiləsi həyata keçirəcək, qurumların nəşrləri, araşdırmaları üzv təşkilatlar arasında yayılacaqdır.

Protokolu ATİB tərəfindən İdarə Heyətinin sədri Ahmet Erentok, ADFIAP tərəfindən isə Baş Katib Oktavio Borlaza Peralta imzalamışdır.

Nəzərinizə çatdıraq ki, ADFIAP Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik QHT-dir. ADFIAP-ın daimi katibliyi Filippinin Manila şəhərində yerləşir.

Qeyd edək ki, Bakı səfəri çərçivəsində Oktavio Borlaza Peralta Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov, Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Cahangir Hacıyev, Azərbaycan Banklar Assosiasiyasının Prezidenti Eldar İsmayılov, Azərbaycan İnvestisiya Şirkətinin İcraçı Direktoru Əfqan İsayev, AR İqtisadi İnkişaf Nazirliyi Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin müdiri Sahil Babayev, Xarici İnvestisiya Layihələri sektorunun müdiri Fuad Əhmədov, Beynəlxalq Maliyyə İnstitutları ilə Əməkdaşlıq sektorunun müdiri Elçin Əhmədov və Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Aparatının Rəhbəri Mehman Abbas ilə görüşmüşdür. ADIAF Baş katibinin həmçinin ATİB ofisində Quruma üzv banklar – YapıKredi Bank, Unibank KB, AtaBank ASC, Bank Standard və Rabitəbank ASC nümayəndələri ilə ilə görüşü keçirilmişdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**